# Gəncəlilər Azərbaycanın Tehrandakı səfirliyində törədilən terroru lənətləyir və buna hüquqi qiymət verilməsini tələb edirlər

Yanvarın 27-də Bakı vaxtilə saat 8:30 radələrində Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinə edilmiş silahlı hücum bütün Azərbaycan ictimaiyyəti kimi, gəncəlilərin də hiddətinə səbəb olmuşdur. Onlar dövlətimizi və xalqımızı hədəfə almış bu vandalizm aktının arxasında dayanan mənfi qüvvələrin insanlığa sığmayan, milli və dini dəyərlərə, sivil münasibətlərə və beynəlxalq hüquq normalarına zidd olan bu vəhşiliyini pisləyir və hadisəni terror aktı kimi qiymətləndirirlər. Bu aktı törədənlər bilməlidirlər ki, 44 günlük Vətən müharibəsinin nəticələri və sonrakı proseslər Azərbaycanın istənilən təhdidin qarşısını almağa, illərdir ki, regionda kök salmış terrorizmi məhv etməyə və bütün strateji hədəflərini gerçəkləşdirməyə qadir olduğunu göstərdi.










İran İslam Respublikasındakı Azərbaycan səfirliyinə hücum onu göstərdi ki, İranda heç bir diplomatik nümayəndəliyin toxunulmazlığına zəmanət yoxdur. İran tərəfindən hadisəni törədən şəxsin erməniəsilli olduğunun bildirilməsi əsl həqiqətdən uzaqlaşmaq istəyinə söykənir. Rəsmi Tehran bu yolla sanki Azərbaycan-Ermənistan ədavətinə köklənir və iz azdırır. Hadisənin şəxsi zəmində baş vermədiyini söyləmək üçün daha bir məqam isə onun səfirlik binasının içərisində törədilməsidir. Söz yox ki, belə xain terror əməli Azərbaycanı öz yolundan döndərə bilməyəcək. Əksinə, ölkəmiz öz mövqeyində daha qətiyyətli olacaqdır.

Azərbaycanın İran İslam Respublikasındakı səfirliyinə edilən terror gəncəlilər tərəfindən şiddətlə qınanıldı və bu hadisəni İran xüsusi xidmət orqanlarının təşkil etdiyi terror aktı kimi qiymətləndirdilər. Onlar İran tərəfindən edilən terror hücumunu törədənlərin, eləcə də bu qanlı əməlin sifarişçilərinin ən qısa müddətdə müəyyən edilərək cəzalandırılmasını qətiyyətlə tələb edirlər.

Törədilən terror zamanı şəhid olan Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinin mühafizə xidmətinin rəisi Orxan Əsgərov gəncəli idi. Onun atası Rizvan Əsgərov şəhərdə hörmətli və tanınmış uşaq həkimidir. Biz Rizvan həkimin yaşadığı evə getdik. Dedilər ki, Orxanın atası da, anası da hadisə ilə bağlı Bakıya yola düşüblər. Həyat insanla dolu idi. Şəhər rəhbərləri də orada idilər. Hamının üzündə böyük kədər var idi. Qonşuları ilə söhbət etdik. Hamı bir ağızdan dedi ki, Rizvan həkimin çox gözəl ailəsi var. Övladlarını tərbiyəli və əsl vətənpərvər insan kimi böyüdüb. Qonşusu Asif Muradov bu ailədən daha çox razılıq etdi. Dedi ki, orta məktəbi bitirdikdən sonra Orxan ali təhsilli hüquqşünas kimi bir neçə xarici ölkədəki diplomatik səfirliklərimizdə çalışıb. Son iş yeri isə Azərbaycanın İran İslam Respublikasındakı səfirliyində mühafizə xidmətinin rəisi olub.

Gəncəlilər bu hadisəni bir ölkənin digər suveren ölkəyə qarşı törətdiyi terror aktı kimi qiymətləndirirlər.

Törədilmiş terror aktı ilə bağlı şəhər ziyalıları ilə söhbət etdik.

**Fuad ƏLİYEV,** AMEA-nın Gəncə bölməsinin akademik katibi, akademik:

- Hadisəni eşidəndə böyük sarsıntı keçirdim. Özünü islam respublikası hesab edən bir ölkə belə vandalizm aktını necə törədə bilərdi. Ancaq mən bu terrorun törədilməsinə təəccüb etmədim. Çünki özünü dost, qardaş ölkə adlandıran İran bütün dövrlərdə Azərbaycana qarşı nifrət hissini gizlədə bilməyib. Xüsusilə 30 il işğal altında olan Qarabağda törədilən vəhşiliklərdə işğalçı Ermənistana həmişə dəstək verib. Şəhər və kəndlərimizin dağıdılmasında, talan edilməsində Ermənistanın yanında olub. Odur ki, bu ölkənin yanvarın 27-də Azərbaycan Respublikasının Tehrandakı səfirliyində törətdiyi terror aktı gözlənilən idi. Torpaqlarımızın işğaldan azad edilməsini, qazandığımız iqtisadi uğurlarımızı, beynəlxalq aləmdə nüfuzumuzun artmasını gözü götürməyən İran İslam Respublikasının rəhbərlərinin bu hərəkəti beynəlxalq hüquq pozuntusudur. Səfirlikdə törədilən bu hadisə nəticəsiz qalmamalıdır. Günahkarlar öz cəzalarına çatmalıdırlar.

**Mehman RZAYEV,** Gəncə Tibb Kollecinin direktoru:

- Yanvarın 27-də İrandakı Azərbaycan səfirliyinə edilən hücum və bunun nəticəsində bir nəfərin ölümü, iki nəfərin isə yaralanması onu deməyə əsas verir ki, İran hələ də Azərbaycana nifrətlə yanaşır. Özünü islam respublikası adlandıran bir ölkənin öz qonşusuna qarşı təşkil etdiyi bu terror onun nə qədər düşmən mövqeyində olmasını bir daha sübut etdi.

**Arif QAZIYEV,** ADAU-nun kafedra müdiri:

- Azərbaycan sürətlə inkişaf edir. Söz yox ki, bu inkişafı bəzi dövlətlərin gözü götürmür. Belə dövlətlərdən biri də İran İslam Respublikasıdır. Uzun illərdir ki, üzdə dost, qardaş deyib, arxada bizə qarşı düşmənçilik edən İran, nəhayət, düşmənçiliyini açıq şəkildə büruzə verdi. Yanvarın 27-də Bakı vaxtilə saat 8-30 radələrndə Azərbaycanın Tehrandakı səfirliyinə terror aktı təşkil edərək bir nəfərin ölümünə, iki nəfərin isə yaralanmasına səbəbkar oldular. Bununla İran açıq şəkildə sübut etdi ki, bu dövlət tarixi düşmənçiliyini davam etdirir. Törədilən vandalizmə bəraət qazandırmaq üçün bu dövlətin rəhbərləri müxtəlif bəhanələrlə dünya ictimaiyyətinin nəzərini başqa səmtə yönəltmək istəyirlər. Lakin onlar istəklərinə nail ola bilmədilər. Baş verən qanlı olay dünya ictimaiyyətinə olduğu kimi çatdırıldı. İndi Azərbaycan xalqı İran İslan Respublikasının təşkil etdiyi bu terrora hüquqi qiymət verilməsini gözləyir. Biz inanırıq ki, haqq-ədalət öz yerini tapacaq.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 29 yanvar.- S. 7.